**Fərid Məmmədhəsənov**

**UOT:336.1; JEL; G21; G24.**

# Ölkədə regionlarında bələdiyyə büdcələrinin gəlir və xərclərinin müasir vəziyyəti

***Xülasə***

*Azərbaycanda regionların sosial-iqtisadi inkişafında bələdiyyə orqanların da xüsusi rolu vardır. Bu yerli idarəetmə orqanları regional proqramların inkişafında yaxından iştirak etməklə, bu sahədə qarşıya qoyulan məqsəd və vəzifələrin həllinə öz töhfələrini verməlidirlər. Məqalədə regional və yerli bələdiyyə büdcə gəlirləri təhlil olunur, Azərbaycanda mərkəzi və yerli büdcələr arasında münasibətlərin qurulması, iqtisadi inkişafın tənzimlənməsində yerli özünüidarəetmə orqanlarının rolunun artırılması, regional (bələdiyyə) maliyyələrin idarəetmə keyfiyyətinin yüksəldilməsi, büdcənin müxtəlif səviyyələrində xərc səlahiyyətlərinin bölüşdürülməsi kimi sahələrdə tövsiyələr irəli sürülür.*

***Açar sözlər:*** *regional və yerli büdcələr, mərkəzi və yerli büdcələr, büdcələrarası münasibətlər, bələdiyyə büdcə gəlirləri, bələdiyyə xərcləri, maliyyə idarəetməsi*

## Giriş

Azərbaycanda son illər geniş vüsət almış bələdiyyə quruculuğu sahəsində xeyli işlər görülmüşdür və əldə edilən nailiyyətlər nəzərə çarpır. Xüsusilə, bələdiyyələrin fəaliyyətinə dövlət dəstəyi və qayğısı ilbəil artır və yerli özünüidarələrin inkişaf proqramlarının həyata keçirilməsində böyük rol oynayır. Bu işlər sırasında əksər yerli özünüidarə orqanlarının yenicə tikilib istifadəyə verilmiş inzibati binalarla təmin olunmasını, müxtəlif yerli əhəmiyyətli sosial-iqtisadi tədbirlərin və proqramların reallaşdırılmasında bələdiyyələrin fəal iştirakını, o cümlədən hər bir bələdiyyəyə məxsus müvafiq ərazilərdə geniş tikinti-abadlıq işlərinin görülməsini, ekoloji mühitin sağlamlaşdırılması məqsədilə yaşıllaşdırma işlərinin aparılmasını qeyd etmək olar.



## Bələdiyyə idarəetmə qurumlarının fəaliyyətinin təşkili

Azərbaycanda yerli özünüidarə prinsipi ilk olaraq 1995-ci ildə qəbul edilmiş Konstitusiyada təsbit olunmuşdur. Sonradan "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının müddəaları əsas götürülərək yerli özünüidarənin mühüm sahələrini tənzimləyən yeni qanunvericilik aktları qəbul edilmişdir. Mövcud qanunvericiliyə görə Azərbaycan Respublikasında yerli özünüidarə vətəndaşların fəaliyyətinin təşkilinin elə bir sistemidir ki, bu sistem onlara yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək, əhalinin mənafeyi naminə dövlət işlərinin bir hissəsini yerinə yetirmək imkanı verir. İlk bələdiyyə seçkiləri ərəfəsində ümummilli lider Heydər Əliyev xalqa müraciətində demişdir: "Yerli idarəetmə orqanları yerlərdə onların səlahiyyətləri çərçivəsində, qanun çərçivəsində çox işlər görə bilərlər. Beləliklə, onlar dövlətin də gördüyü işlərin böyük bir hissəsini öz üzərlərinə götürəcəklər, dövlətin də yükünü müəyyən qədər yüngülləşdirəcəklər". Doğrudan da ötən dövr ərzində bələdiyyələr ictimai həyatda daha fəal rol oynamağa başlamış, yerli demokratiyanın inkişafında və sosial məsələlərin həllində xeyli irəliləyişə nail olmuşlar. Bir çox yerli əhəmiyyətli iqtisadi, sosial, ekoloji və digər problemlər məhz bələdiyyələrin imkanları hesabına həll edilir. Bələdiyyə sahəsində dövlət siyasətinin əsas istiqamətlərindən biri də bələdiyyələrin fəaliyyətində qanunçuluğa riayət edilməsinin təmin olunması, hüquq pozuntularının aradan qaldırılmasıdır. Bu məqsədlə "Yerli özünüidarə haqqında" Avropa Xartiyası nəzərə alınmaqla 2003-cü ilin may ayında "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Qanun qəbul edilmiş və ölkə Prezidentinin Fərmanı ilə müvafiq nəzarətin

©*Fərid Məmmədhəsənov AzDİU fəlsəfə doktoru hazırlığı üzrə doktorant. E-mail: fmammadhasanov@gmail.com*
©*AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

həyata keçirilməsi səlahiyyətləri Ədliyyə Nazirliyinə həvalə olunmuşdur. Ədliyyə Nazirliyinin üzərinə qoyulmuş bu mühüm vəzifənin icrası və bələdiyyələrin işində qanunçuluğun təmin edilməsi məqsədi ilə onların fəaliyyətinə Avropa Xartiyasında müəyyən edilmiş prinsiplərə uyğun inzibati nəzarət həyata keçirilir. Yəni, inzibati nəzarət qanunçuluğa və Konstitusiya prinsiplərinə riayət olunmasını təmin etmək üçün nəzərdə tutulub. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin gücləndirilməsi, onlara hüquqi və metodiki yardımın yaxşılaşdırılması məqsədi ilə Ədliyyə Nazirliyinin tabeliyində 10 regional ədliyyə şöbəsi yaradılmışdır. Nazirlik tərəfindən bələdiyyələrin maarifləndirilməsi işinə xüsusi diqqət yetirilir, onların fəaliyyətinə dair qanunvericiliyin təkmilləşdirilməsi və digər məsələlər mütəmadi olaraq nazirliyin kollegiyasında müzakirə edilir. Hüququn qəliz dililə Azərbaycanda yerli özünüidarənin real imkanları ilə bağlı təsvirə keçməzdən öncə hər biriniz öz yaşadığınız əraziyə baxın: məişət tullantılarını mənzil-istismar sahələri daşıyır, ictimai nəqliyyatı icra hakimiyyətləri tənzimləyir, içməli suyu dövlət şirkətindən alırsınız, yolları icra hakimiyyətləri və bu sahəyə səlahiyyətli dövlət şirkəti çəkir (yaxud təmir edir), uşaq bağçalarına, məktəblərə, kitabxanalara və digər mədəniyyət, eyni zamanda idman-sağlamlıq obyektlərinin fəaliyyətinin təmin edilməsinə müvafiq nazirliklər məsuliyyət daşıyır. Bu qədər xidmətin içərisində bələdiyyələr üçün bir yer görürsünüzmü. Bu yanaşma təbii ki yerli idarəetmə qurumlarının maliyyə imkanlarının mövcudluğunu və ondan istifadə səviyyəsini gündəmə gətirir. Problemin ən maraqlı olan tərəfinə baxaq: hansı inzibati-ərazi vahidlərində yerli xidmətlər üçün əhalidən (həmçinin müəssisə və təşkilatlardan) haqq yığmaq, dövlət büdcəsindən subsidiya almaq imkanı varsa istisnasız olaraq həmin məkanlarda dövlət strukturları xidmət göstərir və bələdiyyələr hər hansı rol ala bilmir. İri şəhərlərdə və rayon mərkəzlərində məişət tullantılarının toplanması və nəqli, içməli suyun çatdırılması, yollara xidmət və s. bunun qabarıq nümunələridir.



**Bələdiyyə büdcələrinin gəlirləri və xərclərinin təhlili**

Regionların büdcə imkanlarını qiymətləndirmək üçün bələdiyyə büdcələrinin gəlir və xərclərini müqayisə etmək də vacibdir. Büdcə zərfinin məlumatları əsasında tərtib etdiyimiz cədvələ görə ayrı-ayrı regionlar üzrə bu göstəricilər aşağıdakı kimi diqqəti cəlb edir.

**Cədvəl 1.**

**Bələdiyyə büdcələrinin gəlirləri və xərcləri** (min manat) [1,2]

| | Bələdiyyələrin sayı | Gəlirlər | | | Xərclər | | |
|---|---|---|---|---|---|---|---|
| | | 2019 | 2020 | 2020 2019-a nisbətən (%) | 2019 | 2020 | 2020 2019-a nisbətən (%) |
| Azərbaycan Respublikası | 1606 | 36381,8 | 34970,6 | 96,1 | 36378,8 | 34383 | 94,5 |
| Bakı şəhəri | 53 | 9849,2 | 9069,9 | 92,1 | 9868,3 | 9005,5 | 91,3 |
| Naxçıvan MR | 170 | 851 | 1072,9 | 126,1 | 798,2 | 985 | 123,4 |
| Abşeron-Xızı | 30 | 3354,5 | 3169,1 | 94,5 | 3364,4 | 3103 | 92,2 |
| Dağlıq Şirvan | 110 | 1319,4 | 1267,8 | 96,1 | 1337,4 | 1258,5 | 94,1 |
| Gəncə-Daşkəsən | 114 | 1973,5 | 1698,4 | 86,1 | 1949,5 | 1682,9 | 86,3 |
| Qarabağ | 167 | 932,8 | 1198,2 | 128,5 | 920,1 | 1191,8 | 129,5 |
| Qazax-Tovuz | 149 | 2315,8 | 1780,8 | 76,9 | 2343,5 | 1731 | 73,9 |
| Quba-Xaçmaz | 127 | 3732,2 | 3530,7 | 94,6 | 3756,2 | 3333,8 | 88,8 |
| Lənkəran-Astara | 179 | 1460,6 | 1096,6 | 75,1 | 1501 | 1167,9 | 77,8 |
| Mərkəzi Aran | 155 | 1511,7 | 1753,1 | 116,0 | 1512,2 | 1709,6 | 113,1 |
| Mil-Muğan | 127 | 1213,2 | 1222,1 | 100,7 | 1220,7 | 1164,5 | 95,4 |
| Şəki-Zaqatala | 145 | 5180,7 | 6143,2 | 118,6 | 5071,9 | 6086,6 | 120,0 |
| Şərqi Zəngəzur | - | - | - | - | - | - | - |
| Şirvan-Salyan | 75 | 9849,2 | 9069,9 | 92,1 | 9868,3 | 9005,5 | 91,3 |









Yuxarıda təqdim olunan cədvəl və diaqramlardan göründüyü kimi ölkə üzrə mövcud olan 1606 bələdiyyə qurumunun toplam gəlirləri 2020-ci ildə 2019-cu illə müqayisədə 96,1%, xərcləri isə 94,5% təşkil etmişdir. 2020-ci ildə gəlirlərində artım olan Regionlar: Naxçıvan MR -126,1%, Qarabağ – 128,5%, Mərkəzi Aran – 116%, Mil-Muğan – 100,7%, Şəki-Zaqatala -118,6%, azalma baş verən Regionlar: Bakı – 92,1%; Abşeron-Xızı – 94,5%, Dağlıq Şirvan – 96,1%, Gəncə Daşkəsən – 86,1%, Qazax-Tovuz – 76,9%, Quba-Xaçmaz – 94,6%, Lənkəran-Astara-75,1%, Şərqi-Zəngəzur – 96,1%, Şirvan-Salyan – 92,1% olmuşdur. Xərclərində artım olan Regionlar: Naxçıvan MR -123,4%, Qarabağ – 129,5%, Mərkəzi Aran – 113,0%, Şəki-Zaqatala -120,0%; azalma baş verən Regionlar: Bakı – 91,3%, Abşeron-Xızı – 92,2%, Dağlıq Şirvan – 94,1%, Gəncə Daşkəsən – 86,3%, Qazax-Tovuz – 76,9%, Quba-Xaçmaz – 88,8%, Lənkəran-Astara-77,8%, Mil-Muğan – 95,4%, Şərqi-Zəngəzur – 94,5%; Şirvan-Salyan – 91,3% olmuşdur. Hazırda bələdiyyələrin əldə etdikləri və topladıqları gəlirlər onlara ayrılmış funksiyaları yerinə yetirmək baxımından yetərli deyildir. Başqa sözlə, bu məbləğlər mərkəzi büdcə gəlirlərinin cəmi 0,15%-i, xərclərinin isə 0,13%-i təşkil edir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Cədvəl 2.**

**Regionlar üzrə bələdiyyə büdcələrinin gəlirləri və xərclərinin payı (%)** [1,2]

| | Gəlirlər | | Xərclər | |
|---|---|---|---|---|
| | 2019 | 2020 | 2019 | 2020 |
| **Azərbaycan Respublikası** | 100 | 100 | 100 | 100 |
| **Bakı şəhəri** | 27,1 | 25,9 | 27,1 | 26,2 |
| **Naxçıvan MR** | 2,3 | 3,1 | 2,2 | 2,9 |
| **Abşeron-Xızı İR** | 9,2 | 9,1 | 9,2 | 9,0 |
| **Dağlıq Şirvan İR** | 3,6 | 3,6 | 3,7 | 3,7 |
| **Gəncə-Daşkəsən İR** | 5,4 | 4,9 | 5,4 | 4,9 |
| **Qarabağ İR** | 2,6 | 3,4 | 2,5 | 3,5 |
| **Qazax-Tovuz İR** | 6,4 | 5,1 | 6,4 | 5,0 |
| **Quba-Xaçmaz İR** | 10,3 | 10,1 | 10,3 | 9,7 |
| **Lənkəran-Astara İR** | 4,0 | 3,1 | 4,1 | 3,4 |
| **Mərkəzi Aran İR** | 4,2 | 5,0 | 4,2 | 5,0 |
| **Mil-Muğan İR** | 3,3 | 3,5 | 3,4 | 3,4 |
| **Şəki-Zaqatala İR** | 14,2 | 17,6 | 13,9 | 17,7 |
| **Şərqi Zəngəzur İR** | | | | |
| **Şirvan-Salyan İR** | 27,1 | 25,9 | 27,1 | 26,2 |

Cədvəl 2-dən göründüyü kimi bələdiyyə gəlirlərinin: 2019-cu ildə 27,1%-i, 2020-ci ildə isə 25,9%-i Bakı şəhərinə; müvafiq olaraq - 12,2 və 17,6%-i Şəki-Zaqatala; 10,3 və 10,1%-i Quba-Xaçmaz; 9,2 və 9,1%-i Abşeron-Xızı; 6,4 və 5,1%-i Qazax-Tovuz; 5,4 və 4,9%-i Gəncə-Daşkəsən; 4,2 və 5,0%-i Mərkəzi Aran; 4,0 və 3,1%-i Lənkəran-Astara; 3,6 və 3,6%-i Dağlıq Şirvan;3,3 və 3,5%-i Mil-Muğan; 2,6 və 3,1%-i Naxçıvan MR; 2,6 və 3,4%-i Qarabağ iqtisadi rayonlarının payına düşür. Bələdiyyə xərclərinin: 2019-cu ildə 27,1%-i, 2020-ci ildə isə 25,9%-i Bakı şəhərinə; müvafi olaraq - 12,2 və 17,6%-i Şəki-Zaqatala; 10,3 və 10,1%-i Quba-Xaçmaz; 9,2 və 9,1%-i Abşeron-Xızı; 6,4 və 5,1%-i Qazax-Tovuz; 5,4 və 4,9%-i Gəncə-Daşkəsən; 4,2 və 5,0%-i Mərkəzi Aran; 4,0 və 3,1%-i Lənkəran-Astara; 3,6 və 3,6%-i Dağlıq Şirvan;3,3 və 3,5%-i Mil-Muğan; 2,6 və 3,1%-i Naxçıvan MR; 2,6 və 3,4%-i Qarabağ iqtisadi rayonlarının payına düşür. Cədvəl 3-də 2019 və 2020-ci ildə ölkə üzrə bələdiyyə büdcələrinin gəlirləri haqqında vəziyyət əks edilmişdir.



**Cədvəl 3.**

**2019 və 2020-ci ildə ölkə üzrə Bələdiyyə büdcələrinin gəlirləri, min manat** [1,2]

| | **2020** | | **2019** | | **2020-2019-cu ilə nisbətən (%)** |
|---|---|---|---|---|---|
| | Daxil olmuşdur | Büdcə gəlirlərində payı (%) | Daxil olmuş dur | Büdcə gəlirlərində payı (%) | |
| Yerli büdcənin gəlirləri – cəmi | **34970,6** | **100,0** | **36381,8** | **100,0** | **96,1** |
| **o cümlədən:** | | | | | |
| Vergilərdən daxilolmalar | **14408,9** | **41,2** | **14061,6** | **38,7** | **102,5** |
| **o cümlədən:** | | | | | |
| **- fiziki şəxslərdən torpaq vergisi** | 5511,7 | 15,8 | 5294,3 | 14,6 | 104,1 |
| **- fiziki şəxslərdən əmlak vergisi** | 7926,0 | 22,7 | 7567,4 | 20,8 | 104,7 |
| **- yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi** | 969,3 | 2,8 | 1198,0 | 3,3 | 80,9 |
| **- bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan mənfəət vergisi** | 1,9 | 0,0 | 1,9 | 0,0 | 100,0 |
| Vergi olmayan gəlirlər | **19653,9** | **56,2** | **21386,8** | **58,8** | **91,9** |
| **o cümlədən:** | | | | | |
| **- daşınmaz əmlak üzərində reklam daşıyıcısının yerləşdirilməsi ilə bağlı ödənişlər** | 19,0 | 0,1 | 16,4 | 0,0 | 115,9 |
| **- bələdiyyələr tərəfindən xüsusi ayrılmış torpaq sahələrində stasionar və ya səyyar ticarət, ictimai iaşə və digər xidmətlərə** | 157,9 | 0,5 | 83,9 | 0,2 | 188,2 |

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

| | | | | | |
|---|---|---|---|---|---|
| **görə ödəniş** | | | | | |
| **- sanatoriya-kurort, mehmanxana və turizm xidmətlərinə görə ödənişlər** | 633,2 | 1,8 | 1957,2 | 5,4 | 32,4 |
| **- avtomobillərin dayanacaqları üçün ödənişlər** | 240,7 | 0,7 | 279,0 | 0,8 | 86,3 |
| **- bələdiyyə əmlakının özəlləşdirilməsindən, icarəyə və istifadəyə verilməsindən gəlirlər** | 12441,7 | 35,5 | 13101,3 | 36,0 | 95,0 |
| **o cümlədən:** | | | | | |
| **- bələdiyyə əmlakının özəlləşdirilməsindən** | 7004,1 | 20,0 | 8359,4 | 23,0 | 83,8 |
| **- bələdiyyə əmlakının icarəyə və istifadəyə verilməsindən** | 5437,6 | 15,5 | 4741,9 | 13,0 | 114,7 |
| **- fiziki və hüquqi şəxslərin maliyyə yardımları** | 439,1 | 1,2 | 263,2 | 0,7 | 166,8 |
| **o cümlədən:** | | | | | |
| **- fiziki şəxslərin maliyyə yardımları** | 253,8 | 0,7 | 223,1 | 0,6 | 0,0 |
| **- hüquqi şəxslərin maliyyə yardımları** | 185,3 | 0,5 | 40,1 | 0,1 | 462,1 |
| **- beynəlxalq təşkilatların və fondların maliyyə yardımları və qrantları** | - | - | - | - | - |
| **- Azərbaycan Respublikasının dövlət büdcəsindən verilən dotasiya və subvensiyalar** | 5722,2 | 16,4 | 5685,8 | 15,6 | 100,6 |
| Digər gəlirlər | **907,8** | **2,6** | **933,4** | **2,6** | **97,3** |

Cədvəl 3 və qrafik 1və 2-də verilən əyani təsvirlərdən göründüyü kimi 2020-ci ildə yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisindən daxilolmaları istisna olmaqla (80,9%), digər vergi növlərindən daxilolmaların artmasına baxmayaraq, bələdiyyə büdcələrinin toplam gəlirləri 2019-cu ilə nisbətən 3,9% azalmışdır. Bunun əsas səbəbi – yerli büdcə gəlirlərinin 56,8%-i təşkil edən vergi olmayan gəlirlərin 8,1% azalmasıdır. 155







Vergi olmayan gəlirlərdən: sanatoriya-kurort,mehmanxana və turizm xidmətlərinə görə ödənişlər (32,4%); avtomobillərin dayanacaqları üçün ödənişlər (86,3%); bələdiyyə əmlakının özəlləşdirilməsindən, icarəyə və istifadəyə verilməsindən gəlirlər (95,0%) azalmışdır. Lakin vergi olmayan gəlirlərin azalmasının əsas mənbəyi onun 63,3%-i təşkil edən bələdiyyə

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

əmlakının özəlləşdirilməsindən, icarəyə və istifadəyə verilməsindən gəlirlərin 5% aşağı düşməsidir. Yerli büdcə gəlirlərinin 2,6%-i təşkil edən digər gəlirlər də əvvəlki illə müqayisədə 2,7% azalmışdır. Cədvəl 4 və diaqram 3-də ölkə üzrə bələdiyyə büdcələrinin xərclərinin vəziyyəti əks olunur.

**Cədvəl 4.**

**Ölkə üzrə bələdiyyə büdcələrinin xərcləri min manat**[1,2]

| | 2020 | | 2019 | | 2020-2019-cu ilə nisbətən (%) |
|---|---|---|---|---|---|
| | Xərclənmişdir | Büdcə xərclərində payı (%) | Xərclənmişdir | Büdcə xərclərində payı (%) | |
| Yerli büdcənin xərcləri, cəmi | **10436,4** | **100,0** | **36378,8** | **100,0** | 28,7 |
| **o cümlədən:** | | | | | |
| **- yerli özünüidarəetmə orqanının saxlanılmasına** | 22579,3 | 65,7 | 22311,1 | 61,3 | 101,2 |
| **- təhsil xərcləri** | 14,0 | 0,1 | 72,9 | 0,2 | 19,2 |
| **- səhiyyə xərcləri** | 3,1 | 0,0 | 6,6 | 0,0 | 47,0 |
| **- sosial müdafiə və sosial təminat xərcləri** | 1627,4 | 4,7 | 1397,0 | 3,8 | 116,5 |
| **o cümlədən:** | | | | | |
| **- sosial müdafiə xərcləri** | 896,7 | 2,6 | 823,2 | 2,3 | 108,9 |
| **- sosial təminat xərcləri** | 730,6 | 2,1 | 573,7 | 1,6 | 127,3 |
| **- mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyətlə bağlı xərclər** | 320,7 | 0,9 | 388,3 | 1,1 | 82,6 |
| **ondan:** | | | | | |
| **- bədən tərbiyəsi, gənclər siyasəti və turizm xərcləri** | 123,4 | 0,4 | 21,2 | 0,1 | 5,8d. |
| **- mənzil-kommunal təsərrüfatı xərcləri** | 5294,0 | 15,4 | 6322,2 | 17,4 | 83,7 |
| **o cümlədən:** | | | | | |
| **- mənzil təsərrüfatı xərcləri** | 1418,6 | 4,1 | 1294,2 | 3,6 | 109,6 |
| **- kommunal təsərrüfatı xərcləri** | 3875,4 | 11,3 | 5028,0 | 13,8 | 77,1 |
| **- yanacaq və enerji xərcləri** | 8,3 | 0,0 | 2,9 | 0,0 | 2,9d. |
| **- kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi xərcləri** | 271,8 | 0,8 | 339,0 | 0,9 | 80,2 |
| **ondan:** | | | | | |
| **- ətraf mühitin mühafizəsi xərcləri** | 94,2 | 0,3 | 95,3 | 0,3 | 98,8 |
| **- sənaye, tikinti və faydalı qazıntılar üzrə xərclər** | 526,5 | 1,5 | - | - | - |
| **- nəqliyyat və rabitə xərcləri** | 1227,8 | 3,6 | 2521,1 | 6,9 | 48,7 |
| **ondan:** | | | | | |
| **- avtomobil yolları və avtomobil nəqliyyatı xərcləri** | 1227,8 | 3,6 | 2521,1 | 6,9 | 48,7 |
| **- digər xərclər** | 2510,1 | 7,3 | 3017,7 | 8,3 | 83,2 |
| - Profisit/kəsir (-) | 587,6 | x | **3,0** | **x** | 195,9d |

**Diaqram 3.**

**Bələdiyyə büdcələrinin xərcləri (min manat)**






© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Təhlillər göstərir ki, 2020-ci ildə bələdiyyə xərclərinin 65,7%-i təşkil edən yerli özünüidarəetmə orqanının saxlanılmasın xərclər (101,2%) və 4,7%-i təşkil edən sosial müdafiə və sosial təminat xərcləri (116,5%) istisna olmaqla bütün digər xərclərin hamısında azalma baş vermişdir. Bələdiyyə xərclərinin 15,4%-i təşkil edən mənzil-kommunal təsərrüfatı xərclərin də azalma 12,3%, 3,6%-i təşkil edən nəqliyyat və rabitə xərclərində isə 51,3% olmuşdur. Azərbaycanda yerli özünüidarəetmə orqanlarının fəaliyyəti daha da canlandırılmalı, bələdiyyələrin işinin səmərəliliyi artırılmalıdır. Bu baxımdan, bələdiyyələrin təşəbbüskarlıq göstərməsi, əlavə gəlir mənbələrinin tapılması, müvafiq beynəlxalq təcrübənin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan regionlarında bələdiyyələrin inkişaf etməsinə mane olan problemləri belə qruplaşdırmaq mümkündür: iqtisadi problemlər – bələdiyyələrin mövcud əmlakları onların yerli özünüidarəni tam həyata keçirənlərə imkan vermir və əlavə maliyyə mənbələri tələb edir; hüquqi problemlər – bələdiyyələrin maliyyə təminatına, eləcə də real və zəruri maliyyə vəsaitləri ilə təmin edilməsinə təkmil hüquqi əsaslar yaradılması üçün qanuna müəyyən əlavə və dəyişikliklər edilməsi zəruridir; maarifləndirmə problemləri – bələdiyyə kadrlarının hazırlanması və onlarda çalışanların maarifləndirilməsi prosesi zəifdir.

**Nəticə**

Hazırda bələdiyyələrin malik olduğu gəlir mənbələri, xüsusən vergi daxilolmaları ilə onlara ayrılmış funksiyaları yerinə yetirmək baxımından yetərli deyildir. Büdcələrarası münasibətlərin mövcud təcrübəsinin təhlil edərək regionlarda büdcə tənzimlənməsinin bukimi əsas vasitələrindən istifadə edilməsini məqsədəuyğundur: yuxarı büdcələrə veriləcək vergilərdən və ödənişlərdən ayırmalar üçün normativlərin təyin olunması; yerli büdcələrə maliyyə dəstəyi və digər maliyyə yardımı vasitəsi ilə büdcə təminatının bərqərar olması üçün yerli büdcələrə subsidiyaların verilməsi; gəlirləri daha yüksək olan bələdiyyə büdcələrindən yuxarı büdcəyə əks transferlər. Regionlarda büdcə tənzimləməsində istifadə edilən əsas alətlərdən biri bələdiyyə təsisatlarının büdcə təminatını bərabərləşdirmək üçün verilən subsidiyalardır. Burada, ərazilərin fiskal imkanları baxımından onların fərqləndirilməsi səviyyəsinin obyektiv qiymətləndirilməsi və regionların və bələdiyyələrin özünü inkişaf etdirməsinə stimul yaratmasına xidmət edə biləcək büdcələrarası transfertlərin bölüşdürülmə metodlarının təkmilləşdirilməsi məsələsi də əhəmiyyətlidir.



**Ədəbıyyat**

1.Azərbaycan Respublikasının Vergi Məcəlləsi 2020 https://www.taxes.gov.az/az/page/ar-vergi-mecellesi

2.Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında 16 noyabr 2021Qanun Layihəsi https://meclis.gov.az/news-layihe.php?id=1593&lang=az&par=0

3. Zeynalov V., Qasımov Ə., Cəfərov Z. Bələdiyyələrə elmi-metodik kömək. Monoqrafiya.Bakı, “Səda” nəşriyyatı, 2002. – 352s.

4. www.https://www.stat.gov.az/source/finance/ Bələdiyyə orqanının büdcəsinin icrası 2019:

5. www.https://www.stat.gov.az/source/finance/ Bələdiyyə orqanının büdcəsinin icrası 2020-ci il

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

***Фарид Мамедгасанов***

***Современное состояние доходов и расходов муниципальных бюджетов регионов страны***

***Резюме***

*В Азербайджане муниципальные органы также играют особую роль в социально-экономическом развитии регионов. Эти органы местного самоуправления, принимая непосредственное участие в разработке региональных программ, должны способствовать решению поставленных целей и задач в этой области. В статье анализируются доходы региональных и местных муниципальных бюджетов, предлагаются рекомендации в таких областях, как установление отношений между центральным и местными бюджетами в Азербайджане, повышение роли органов местного самоуправления в регулировании экономического развития, повышение качества управления региональными (муниципальными) финансами, распределение расходных полномочий на различных уровнях бюджета.*

***Ключевые слова***: *региональные и местные бюджеты, Центральный и местные бюджеты, межбюджетные отношения, доходы муниципального бюджета, муниципальные расходы, управление финансами*

***Farid Mammadgasanov***

***The current state of revenues and expenditures of municipal budgets in the regions of the country***

***Summary***

*Municipal bodies also play a special role in the socio-economic development of regions in Azerbaijan. These local government bodies should contribute to the solution of the goals and objectives set in this area by taking an active part in the development of regional programs. The article analyzes regional and local municipal budget revenues, provides recommendations in such areas as establishing relations between Central and local budgets in Azerbaijan, increasing the role of local self-government in the regulation of economic development, improving the quality of management of regional (municipal) finances, distribution of expenditure powers at various levels of the budget.*

***Keywords:*** *regional and local budgets, central and local budgets, Inter-budget relations, municipal budget revenues, municipal expenditures, financial management*



***Elmi redaktor: i.f.d., dos.Y.Məmmədov.***
***Daxil olub: 28.03.2022.***
***Çapa qəbul olunub: 04.04.2021.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*